# Koronavirus (COVİD-19) ilə bağlı vəziyyət dövlətimizin nəzarəti altındadır

Ümumdünya Səhiyyə Təşkilatının bu ilin mart ayında pandemiya elan etdiyi COVID-19 virusu Yer kürəsində tüğyan etməkdə davam edir. Son statistikaya əsasən, dünyada COVID-19-dan ölənlərin sayı 800 mini, virusa yoluxanların sayı isə 23 milyonu ötüb.

Qeyd edək ki, koronavirusa yoluxma sayına görə, ABŞ, Braziliya və Hindistan ilk üçlükdə yer alır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus isə söyləyib ki, COVID-19 pandemiyasının iki ildən az müddətdə bitəcəyinə ümid edirik. ÜST rəhbəri qeyd edib ki, hazırkı durumda daha çox texnologiyalar mövcuddur: "Yeni növ virus yaxın təmaslarla daha sürətli yayılır, ancaq onun qarşısını almaq üçün müvafiq texnologiyamız var".

Ardıcıl olaraq yumşaldılmalar həyata keçirilir

Azərbaycanda virusun ilk üzə çıxdığı zamandan etibarən görülən effektiv tədbirlər, infeksiyanı nəzarətolunan səviyyədə saxlamağa imkan verib. Yoluxma səviyyəsində müsbət dinamika tendensiya halını alıb. Buna görə də sərtləşdirilmiş karantin rejimindən mərhələli şəkildə yumşaldılmalara keçid də sürətlənib.

Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Bu ayın 10-dan iqtisadi aktivliyin gücləndirilməsinin zərurəti nəzərə alınaraq, sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib.

Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb. Ayın 18-dən ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə, 21-dən isə milli parkların qapıları ziyarətçilərin üzünə açılıb.

Yoluxma sayı azaldığı üçün bəzi xəstəxanalar bağlanıb

Yumşaldılmalarla əlaqədar son günlər koronavirusa yoluxma sayında müəyyən artımlar da müşahidə olunmağa başlayıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın ötən cümə keçirilən mətbuat konfransında TƏBİB-in xəstəliklərin profilaktikası və nəzarəti şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, ölkəmizdə koronavirus infeksiyasına yoluxmada artım müşahidə olunmasına baxmayaraq, vəziyyət ciddi nəzarət altındadır. Onun sözlərinə görə, karantin rejimi ilə bağlı mərhələli şəkildə yumşaldılmalara gedilən zaman bəlli artımlar gözlənilən olur, amma bu, heç də o demək deyil ki, vətəndaşlar qaydalara əməl etməməlidirlər.

Şöbə müdiri məlumat verib ki, hazırda ölkədə ən çox yoluxma Bakı və Abşerondadır: "Ölkə üzrə ümumi yoluxmanın 50 faizə yaxını bu ərazilərdədir. Ən çox 50-59 yaş həddində olan insanlar bu virusa yoluxub. Son həftədə 651 nəfər bu virusa yoluxub. Yoluxmanın artmasına səbəb yumşalmalarla bağlıdır. Amma bu o demək deyil ki, biz bununla razılaşmalıyıq. Hər birimiz qaydalara riayət etməliyik. Maskalardan istifadə vacibdir. Qaydalara riayət etsək, yoluxmanın artmasının qarşısını ala bilərik".

Y.Qarayeva onu da qeyd edib ki, bu gün karantin rejimində sərtləşməyə getməklə bağlı fikir yoxdur. Əvvəlki aylarla müqayisədə yoluxma sayında azalma olduğu üçün pandemiyaya görə müalicə aparan bəzi xəstəxanalar bağlanıb.

Həkimlərin şücaəti və dövlətin dəstəyi sayəsində xəstələrin müalicəsində yaxşı nəticələr əldə olunub

Vətənimizdə virusa yoluxma sayında müşahidə edilən azalmalarla yanaşı, sağalan şəxslərin də sayı çoxdur.

Operativ Qərargahın brifinqində Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının reanimasiya şöbəsinin müdiri Emil Qasımov bildirib ki, COVID-19-a yoluxan şəxslərin müalicəsində əldə olunan nəticələr dünyanın bir çox inkişaf etmiş ölkələri ilə eyni səviyyədə, hətta bəzilərindən yaxşıdır. Bu nəticənin əldə edilməsinə səbəb isə həm həkimlərin göstərdiyi şücaət, həm də dövlətin dəstəyi olub.

E.Qasımov söyləyib ki, immun plazmadan effekt alan xəstələr də çoxdur: "İmmun plazma hələlik dünyada müzakirə mərhələsindədir. Bəzi ölkələr deyir ki, çox effekt ala bilmirik, ancaq Azərbaycanda bundan sağalan kifayət qədər xəstə var. Son aylar immun plazmaların istifadəsində heç bir problem olmayıb".

Məlumat verilib ki, ölkəmizdə 90 nəfərə yaxın COVID-19 xəstəliyindən sağalan şəxs koronavirus xəstələrinə qan vermək üçün müraciət edib. Həmin şəxslər yoxlanılıb və 79 nəfərin qan verməsinə icazə verilib. Onlardan götürülən qanla 231 plazma hazırlanıb. Bu plazmalar 179 xəstənin müalicəsində istifadə olunub.

Mərkəzi Neftçilər Xəstəxanasının həkim-infeksionisti Fərrux Sədirov brifinqdə deyib ki, xəstəliyi yüngül formada keçirən şəxslərin 10 gündən sonra virusu başqa şəxslərə yoluxdurma ehtimalı yoxdur: "Ağır keçirən şəxslərdə bu, 20 gündür. Xəstələr ümumilikdə tamamilə müalicə olunduqdan sonra evə göndərilir".

O qeyd edib ki, ümumilikdə Azərbaycanda COVID-19-a yoluxub ölənlərin faizi 1,5-1,6 arasında dəyişir.

Peyvənd istehsalı ilə məşğul olan şirkət və beynəlxalq təşkilatlarla danışıqlar aparılır

Koronavirusdan qorunmağın ən təsirli yolu ona qarşı peyvənddən istifadədir. Hazırda isə bir neçə ölkədə COVID-19-a qarşı vaksin istehsalına başlanıldığı bildirilir.

Adıçəkilən məsələ ilə bağlı məlumat verən TƏBİB rəsmisi Yaqut Qarayeva bildirib ki, Azərbaycan peyvənd istehsalı ilə məşğul olan şirkət və beynəlxalq təşkilatlarla danışıqlar aparır. Onun sözlərinə görə, peyvəndin istehsalı asan deyil: "Bu bir məsuliyyətdir. İstehsal olunan hər peyvənddən istifadə etmək olmaz. Bizim üçün peyvəndin hazırlanması əsas deyil, həmin peyvəndin necə təsir etməsidir. Peyvənd xəstəliyi sağaltmaqla yanaşı, immunitet yaratmalıdır. Ona görə də bu prosesin tez bir zamanda əldə olunması mümkün deyil".

Seroloji testlər pandemiya ilə mübarizədə daha doğru yanaşmalar seçməyə imkan verəcək

Onu da vurğulamaq yerinə düşər ki, respublikamızda virusa yoluxma hallarının erkən aşkarlanması istiqamətində görülən işlər də pandemiyaya qarşı mühüm qabaqlayıcı və operativ tədbirlər sırasında əhəmiyyətli yer tutur.

Hazırda ölkəmizdə koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin ümumi sayı səkkiz yüz altmış mini ötüb.

Həmçinin, COVID-19 pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində əhali qrupları arasında seroloji testlərin keçirilməsinə start verilib. Artıq çağrı mərkəzindən təsadüfi seçilən şəxslərə zənglər edilməyə başlanılıb.

Bu testlərin aparılmasında əsas məqsəd əhali arasında COVID-19 xəstəliyinin keçirilməsi haqqında təsəvvürlərin əldə olunması, xəstəliyi keçirmiş şəxslərdə yaranmış immunitet səviyyəsinin öyrənilməsidir. Seroloji testlər əhali arasında virusa qarşı formalaşmış immunitet səviyyəsinin öyrənilməsi pandemiya ilə mübarizə üçün daha doğru yanaşmalar seçməyə imkan verəcək.

"Qəbələ"

# Azərbaycan-Ermənistan sərhəddində Ermənistan ordusu xarici dövlətlərdən aldığı silah-sursatla silahlanmanı davam etdirir

12 iyul 2020-ci il tarixdə erməni silahlı qüvvələri Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətindəki mövqelərinə gözlənilmədən artilleriya atəşi ilə zərbə endirmiş və qəfil hücum olmasına baxmayaraq ordumuz tərəfindən layiqli cavablarını almışlar. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Ermənistan hökuməti bu təxribata əvvəldən hazırlaşırmış. Bu faktlardan biri odur ki, döyüş başlamadan bir neçə gün əvvəl və toqquşmaların gücləndiyi dövrdə Ermənistana Serbiyadan çox sayda silah-sursat, o cümlədən minaatan və müxtəlif kalibrli döyüş sursatı göndərilib. Serbiyanın hərəkətləri Azərbaycan cəmiyyətində anlaşılmazlığa və birmənalı olmayan reaksiyalara səbəb oldu. Başqa cür ola bilməzdi. Həqiqətən də, çətin günlərdə Serbiya həmişə Azərbaycanın dəstəyini hiss edib. Bir neçə ay əvvəl rəsmi Bakı koronavirusla mübarizə üçün Belqrada humanitar yardım göndərmişdir. Bundan əlavə, Azərbaycan Kosovanın müstəqilliyini tanımır və dəfələrlə Serbiyanın suverenliyinə, ərazi bütövlüyünə birmənalı dəstəyini bəyan edib. Serbiyanın Ermənistana silah satması faktı ilə əlaqədar olaraq, Azərbaycan hökumətinin reaksiyası özünü çox gözlətmədi. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Serbiyanın ölkəmizdəki müvəqqəti işlər vəkili Danitsa Veinoviç bu məlumatla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılmış, Nazirlik tərəfindən Serbiyanın Ermənistanın işğalçı siyasətinə və Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən təcavüzünə dəstək xarakteri daşıyan qeyri-dost addımının Azərbaycan xalqında və rəhbərliyində dərin təəssüf hissi doğurduğunu bildirmişdir. Serbiyanın Ticarət və Telekommunikasiya naziri Rasim Ljajic bildirib ki, Bakının beynəlxalq təşkilatlardakı səsi Serbiya üçün olduqca vacibdir. Biz indi Azərbaycan hakimiyyətinin nümayəndələriylə danışmalı və bu vəziyyətin hər hansı bir şəkildə əlaqələrimizə xələl gətirməsinə imkan verməməliyik, əlimizdən gələni etməliyik ki, gələcəkdə bənzər hallara yol verilməsin. Avqustun 7-də Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edərək, iyul ayında Ermənistan-Azərbaycan sərhədində Ermənistanın təxribatı nəticəsində baş vermiş hadisələr zamanı Ermənistan tərəfinin Serbiyada istehsal olunan silahlardan istifadə etməsindən təəssüf hissi keçirdiyini bildirirərək, vəziyyətin araşdırılması ilə bağlı yaxın vaxtlarda Azərbaycana Serbiyanın yüksək səviyyəli nümayəndə heyətinin göndəriləcəyini qeyd etmişdir. Bu çərçivədə Serbiyanın Baş nazirinin müavini, Milli Təhlükəsizlik Şurasının katibi və Daxili İşlər naziri Neboyşa Stefanoviç Azərbaycana səfəri zamanı jurnalistlərə deyib: "Mən inanıram ki, bu səfər və görüşlər vasitəsilə biz daha yüksək səviyyəli əməkdaşlığa nail olacağıq. Bizim məqsədimiz yalnız təhlükəsizlik sahəsində deyil, digər sahələrdə də əməkdaşlığı gücləndirməkdir. Eyni zamanda bugünkü görüşdə biz təhlükəsizlik sahəsində əməkdaşlığı müzakirə etdik və həssas informasilayarın mübadiləsi, terrorizmlə mübarizə və digər mühüm istiqamətlər üzrə əməkdaşlığı genişləndirmək barədə razılığa gəldik". Bundan başqa Ermənistanın atəşkəsi pozmasından bir neçə gün sonra - iyul ayının 17-dən avqust ayının 4-nə qədər Rusiyadan da Ermənistana təyyarə ilə 7 reys silah daşınıb. Gürcüstan silahların özünün hava sərhədindən daşınmasına icazə vermədiyi üçün təyyarə reysləri Rostov-Minvod-Aktay-Türkmənbaşı-Novşer-Rəşt-Mehri-İrəvan olmaqla 3 xarici ölkə üzərindən daşınıb. Qeyd edək ki, bu ölkələrdən Qazaxıstan və Türkmənistan Azərbaycanla yaxın siyasi və iqtisadi münasibətləri olmasına baxmayaraq Azərbaycana düşmən olan Ermənistana göndərilən silahların özlərinin hava məkanı üzərindən daşınmasına razılıq veriblər. Son günlərdə Rusiyanın Ermənistana verdiyi silahlara radio elektron mübarizə vasitələrindən "Krasuxa", "Avtobaza", "Nebo-M" daxildir. Bu texnika ilə hədəf ölkənin radio danışıqlarını "söndürmək", dinləmək və pilotsuz döyüş aparatlarına qarşı istifadə etmək mümkündür. Onu da qeyd etmək lazımdır ki, Rusiya Ermənistana satdığı silahları dünya silah bazarı qiymətinə deyil, daxili bazar qiymətinə satır ki, bu da Ermənistana olduqca ucuz başa gəlir. Rusiyanın Ermənistana hansı əsaslarla silah satdığı isə məlum deyil. Belə ki, silah satışı haqqında müqavilənin nə vaxt imzalandığı barədə hər iki ölkənin KİV-ndə heç bir məlumata rast gəlinmir. Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək 12-16 iyul tarixlərində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat barədə məlumat verərək təcavüz aktı nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının və bir nəfər mülki şəxsin həlak olduğunu vurğulayıb. Dövlət başçısı Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca kəndləri və yaşayış məntəqələrini artilleriya atəşinə tutması nəticəsində bir çox evlərin dağıldığını və yararsız hala düşdüyünü bildirərək Ermənistanın bu hərbi hücumunun əsas məqsədinin üçüncü tərəfləri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək olduğunu qeyd etmişdir. Eyni zamanda baş vermiş toqquşmalar başa çatdıqdan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğu da Rusiya Prezidentinin diqqətinə çatdırılmışdır. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək bu günə qədər Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu bildirib və telefon zənginin əsas məqsədinin bu məsələnin aydınlaşdırılması olduğunu vurğulayıb. Biz inanırıq ki, Azərbaycan və Serbiya, Azərbaycan və Rusiya dövlətləri arasında baş vermiş anlaşılmazlıq aradan qalxacaq, dövlətlərarası münasibətlər tənzimlənəcəkdir.

"Qəbələ"